❐ ***Əgər hər hansı elm-sənət aləmində, müxtəlif xarakterli tədbirlərdə, məclislərdə adın-soyadın çəkilərkən üzlərdə təbəssüm, tanış simalarda heyranlıq yaranırsa, deməli, yaşanılan ömrün ötən anları hədər getməyib. Belə anlarda ömür "sayğacı" da öz işini görür. Ağına-bozuna baxmadan ayrı-ayrı fakt və hadisələri sıralayır, diqqətə çatdırır. Dəyərli, çoxlarına nümunə olan cəhətlər iftixar hissini qüvvətləndirir. "Hələ yaşamağa dəyər" deyimi ruh yüksəkliyi zəmini kimi xoş ovqat yaradır.***

# Ziyalılıq nümunəsi



Dərin razılıq hissi ilə deməliyəm ki, 50 ildən çox bir müddətdə yaradıcılıq ünsiyyətində olduğum professor, Əməkdar incəsənət xadimi Oqtay Süleyman oğlu Quliyevin 80 yaşına ünvanladığım bu yazını qələmə alarkən səmimiyyətlə aşılanan həmin sözləri diqqətə çatdırmağı lazım bildim.

Keçən əsrin 70-ci illərinin əvvəlləri idi. Musiqi sənətimizin və elmimizin möhtəşəm ocağı olan Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında unudulmaz bəstəkarımız, professor Süleyman Ələsgərovun rəhbərlik etdiyi xalq çalğı alətləri kafedrası iclasında problemlə bağlı mühüm bir məsələ müzakirə edilirdi. İclasdan sonra Süleyman müəllim qarayanız, ilk baxışdan ağayana təbiəti ilə diqqəti cəlb edən gənc oğlanı göstərib özünəməxsus mehribanlıqla soruşdu:

– Oqtay müəllimlə tanışsanmı?

– Yaxından tanışlığım yoxdur, adını eşitmişəm, məqalələrini oxumuşam, – dedim.

Böyük ustadımız Süleyman müəllim həmişəki kimi xeyirxahlığından qalmadı:

– Yaxından tanış ol.Oqtay müəllimin uğurlu gələcəyi var. Əminəm ki, musiqi sənətşünaslığı sahəsində tanınan, sayılıb-seçilən alimlərimizdən biri olacaq...

Keçən əsrin 70-ci illərinin əvvəllərindəki tanışlığımız, dostluğumuz çox nikbin ruhda, musiqişünasların dediyi kimi, major ladında davam etdi.

Ötən illər ərzində səmimi münasibətimiz, müşahidələrim əsasında belə qənaətə gəlmişəm ki, Oqtay müəllim az danışıb, çox iş görən ziyalılarımızdandır.

Oqtay müəllim hələ 38 il bundan əvvəl Vano Sarajşvili adına Tbilisi Dövlət Konservatoriyasında "Azərbaycan xalq çalğı alətləri orkestri və onun respublikanın musiqi mədəniyyətinin inkişafında rolu" mövzusunda dissertasiya müdafiə edib, sənətşünaslıq namizədi alimlik dərəcəsi alanda da sübut etdi ki, onun bu sahəyə gəlişi ötəri həvəs deyil. Aydın məqsəd yolunda inamla addımlamağın, orıjinal sahələrdə uğurlu tədqiqatlarının dəyərli nəticəsidir.

Burada bir haşiyə etsəm yerinə düşər. Oqtay müəllim 1957-ci ildə gənc tarzən kimi Moskvada keçirilən gənclərin və tələbələrin VI Ümumdünya festivalında uğurla çıxış edib. Festivalın laureatı adına layiq görüləndə 19 yaşı var idi. Əlbəttə, bu, çox böyük qələbə idi. Çoxları elə bilirdi ki, O.Quliyev bədii istedadını, fəaliyyət enerjisini ifaçılıq sənətinə sərf edəcək. Lakin o, milli musiqi mədəniyyətimizin inkişafı naminə daha çətin və şərəfli yolla irəliləməyi üstün tutdu. Milli musiqi kadrlarımızın hazırlanması işinin nəzəri-metodik təminatı sahəsində yazıb-yaratdı. Təkcə onu göstərmək kifayətdir ki, əsası Üzeyir bəy tərəfindən qoyulan və Azərbaycan proffesional musiqisinin inkişafında misli görünməmiş xidmətləri olan Xalq Çalğı Alətləri Orkestri haqqında çox dəyərli monoqrafiya məhz professor Oqtay Quliyevə məxsusdur."İşıq" nəşriyyatı tərəfindən 1980-ci ildə çap olunan həmin monoqrafiyada əhatə edilən məsələlər problemliyi ilə indi də böyük maraq doğurur.

"Xalq musiqi ifaçılığı tarixindən", "Xalq çalğı alətləri orkestrinin yaranması və təşəkkülü ". "Yüksəliş illəri", "Yaradıcılıq yollarında ", "Orkestrin tərkibinə daxil olan xalq çalğı alətləri" bölmələrindən ibarət olan və mühüm əhəmiyyət kəsb edən bu əsərdən gənc tədqiqatçılar, habelə ali və orta ixtisas musiqi məktəblərinin tələbələri faydalanırlar.

Professor O.Quliyevin "Azərbaycan musiqisinin inkişafında xalq çalğı alətlərinin rolu ", "Süleyman Ələsgərovun tar ilə xalq çalğı alətəri orkestri üçün konserti" , "Tar ilə fortepiano üçün köçürmələr", "Tar üçün reyslər məcmüəsi" (Səid Hacıyevlə birgə ) və digər metodik vəsaitləri xalq çalğı alətləri ixtisasları üzrə təhsil alan tələbələrin nəzəri biliyini, təcrübi qabiliyyətlərini artırmağa əhəmiyyətli təsir göstərmişdir.

Oqtay müəllim musiqi təhsili sisteminin milli və ümümbəşəri zəmində qurulması naminə yorulmadan çalışan, daim yaradıcılıq axtarışında olan alimlərdəndir.

Professor Oqtay Quliyevin özünəməxsus dəsti-xətti, yazı üslubu var. Dili, qələmə aldığı mövzu ilə bağlı tərzi aydın və mənalıdır. Etiraf edim ki, tanınmış musiqişünas alimin yaradıcılığındakı bu cəhətlər mənim də nəzərimdən yayınmayıb. "Bəstəkar Süleyman Ələsgərov" monoqrafiyasının "Bəstəkarın tədris olunan əsərləri" bölməsini işləyərkən O.Quliyevin "Süleyman Ələsgərovun tar ilə xalq çalğı alətləri orkestri üçün konserti" adlı metodik tövsiyəsinə istinad etdim.Bu gün iftixarla deməliyəm ki, "İşıq" nəşriyyatı tərəfindən ikinci dəfə 1989-cu ildə çap olunan monoqrafiyanın 43-44-cü səhifələrində Oqtay müəllimin dəyərli təhlil və ümumiləşdirilmələri də öz yerini tutub.

Professor O.Quliyev istedadlı musiqişünas alim, tədqiqatçı olmaqla yanaşı, bacarıqlı, yaradıcı pedaqoqdur. O, Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında, habelə 10 il ərzində (1994-2003) Türkiyənin Qara Dəniz Texniki Universitetinin "Gözəl sənətlər" fakültəsində professor-pedaqoq kimi çalışdığı illərdə həmişə fərqlənmiş, həmkarlarının dərin rəğbətini qazanmışdır.

Oqtay müəllim harada, hansı vəzifədə çalışıbsa, ətrafındakıların, ünsiyyətdə olduğu adamların daima rəğbətini qazanıb. Azərbaycan Milli Konservatoriyasında tədris işləri üzrə prorektor vəzifəsində çalışdığı illərdə də həmkarlarının, habelə bu və ya digər məsələdən ötrü ona müraciət edənlərin daim rəğbətini qazanıb. Xalqımızın, müxtəlif nəsillərdən olan insanların musiqi mədəniyyətinin inkişafı naminə fədakarlıq, əsl ziyalılıq nümunəsi göstərən, Əməkdar incəsənət xadimi, professor Oqtay Quliyevin 80 yaşı tamam olur. Hamımız üçün sevinc dolu bu fərəhli gündə əziz dostumuzu səmimi qəlbdən təbrik edir, ona möhkəm cansağlığı, uzun ömür arzulayırıq!

***Vidadi XƏLİLOV,***
***pedaqogika üzrə elmlər doktoru, professor,***
***Rusiya Pedaqoji və Sosial Elmlər Akademiyasının həqiqi üzvü,***
***Əməkdar müəllim***